

Elnur Abdiyev

## SƏN, MƏN, HEÇ NƏ

Sevgimiz,
labirint küçələrlə dolu,
Gör neçə döngədən keçir,
bu sevginin yolu.
Gah göydələn binalara ilişir,
uçan arzuların qanadı,
gah da,
yuxu dadı verir,
sənin bu qış inadın.
Sən,
mən,
küçə.
Hələ küçə bizdən,
bizim ayağımızda keçmirsə,
heç nə...

## NİFRƏTLƏR MƏHƏBBƏTLƏRİ KORŞALDIB

Yamanca yüklənib kinlə ürəklər,
Bitməyir bu nifrət, bu qada, bu qan.
Aşır qəlbdən - qəlbə dilək dirəklər,
İnsanın ovçusu insandır, insan.

İdrakı, şüuru düşüb kəsərdən,
Nifrəti korşaldıb məhəbbətini.
Allah, sən yazdığın o şah əsərdən,
Bir hərf də qalmayıb oxuyum yeni?

Bu necə insandır, sığmır dərkimə,
İnsan da insana tələmi qurar?
Pislik eləyirsə, kim ki hər kimə,
İlahi, sən onu özünə qaytar.

## MƏNİ UNUTSA

Bəxt güzgüsündə ömrü,
Darar vaxtın darağı.
Ömrüm dolu güllədir,
Günlər güllə darağı.
Ümidimlə doldurub,
Atıram bu silahı.
Məni unutsa əgər,
Bu, sabahın günahı.
Dünənimdən bac aldım,
Bu gün yenə tirdəyəm.
Sabahım da mənə mat,
Mən belə sərkərdəyəm.
Məni unudacaqsa,
Sabah bu gün unutsun.
Ey məni yeyən zaman,
Ruhum gözünü tutsun.

## ATAM

Sevgidən vurulan bəndlər, bərələr,
Nifrətdən bir anda dağılar, atam.
Bəzən dağ dibinə yatan dərələr,
Dağın sinəsinə dağ olar, atam

Zaman rəndələyir, izləri sürtür,
Açılan izlərin üzü üz pörtür.
Hər eybin üstünü bir eyib örtür,
Hər eybin altında eyib var, atam.

Az tutub ucundan seç ucuzluğu,
Suyun göbəyində iç susuzluğu.
Yolları axsadar yolçusuzluğu,
Yolçusuz yol olmaz bu yollar, atam.

## ƏLVİDA, KEÇMİŞ

Yollar burub boynunu,
Süd istəyən körpətək.
Yollar gözlər yolumu,
Məndən keçə körpütək.
Yollar boynu bükülü,
Gəlişimə tamarzı.
Bütün arzular yarı,
Tək bu arzu tam arzu.
Bir cüt göz də sərilib,
Xalı kimi yoluma.
Məni məndən aparan,
Yollar girib qoluma.
Addımlarım yeyindir,
Keçməliyəm yolda yol.
Məni sabaha endir,
Əlvida, keçmiş, sağ ol...

## 1 SENTYABRIN ŞEİRİ

Bu gün ümumdünya sülh günü,
Suriyada top mərmiləri,
güllə qəlpələri,
darayır bədənləri.
Çilik-çilik olur sabaha baxışlar,
Siz deyin, dünyada harda barış var?

Bu gün sülhü yad edən bəşər,
bəs səhər danı diksindirən,
mərmilər,
bombalar,
Hansı sülhdən güc alar?
O qətl olunan səmasız torpaqlar,
atasız, anasız qalmış uşaqlar,
nə ad qoysun, bu günə?
Sülhündən şübhə yağır, dünya,
sübhündən gecən fağır, dünya.
Fırlan öz başına ağır-ağır dünya,
amma unutma da bir ağız özünü çağır dünya,
bu gün ümumdünya barış günüdür.
Bu gün bir qaçqın Vətənsiz vətəndaşın,
yalvarış günüdür,
bitsin kürəmizi kürəyə atan hərblər.
Daha ahlarla sökülməsin dan,
açılmasın qara xəbərlə səhərlər.
Hər üzdə sevinc gülsün hər sabah,
Dünya qoynunda yer varmı dəfn edilə,
özün boyda bu hərb adlı günah...

Kaspi .-2016.-10-14 sentyabr.-S.22.